# XƏLƏFLİNİN PAYIZI



Payıza gəlib çatdıq, qabaqda hələ qış var,
Təzə yaza getməyə duman, çovğun, yağış var.

Hər kəsi öz ağlınca qoymurlar yolu getsin,
Hər addımda gör neçə müdaxilə, qarış var.

Məsəldir, dalaşanda barışmağa üz də qoy,
Hər davanın sonunda, biləsən ki, barış var.

Yedi mənəm-mənəmlik, insanlığı taladı,
Sən öndəsən, mən öndə, bəhsəbəhsdə yarış var.

Azın-çoxun üstündə tamahların savaşı,
Hər kəsin öz ölçüsü - arşın, qulac, qarış var.

Yağılar fürsət buldu, daş atdı, çiliкləndi,
Sınan güzgü bəxtimiz - neçə nəzər, baxış var.

Xəyalların səması - arzu, dilək səhrası,
Seçə bilsən ömründə qövsi-qüzeh naxış var.

Yurd yarası kimsənin söküyünü tikmədi,
Xumarlanıb yatmağa yorğan, döşək, balış var.

Milyonlar səltənəti... bircə qurban payına
Möhtacların dilindən allı-güllü qarğış var.

Qafqaz böyük bazardı - hərracda Azərbaycan,
Qiymət çənə-boğazda, veriş üstə alış var.

Həqiqəti görməzdən keçməyin susmağındır,
Danışmağın kökündə doğrunu de, danış var.

Heysiyyətlər çəkilir, bazarlıq arasına,
Tərəzidə vicdandır, açıq topdansatış var.

Ötdü, keçdi qərinə, açılmadı başımız,
Göz dağı, ürək dağı Qarabağda qalmış var.

Hanası darda qalmış, xanasına xal düşdü,
Baş açmadı baş təpən, çeşnisində yanlış var.

Əyri dedi, düz dedi - danışanın fərqi yox,
Qaragünlü millətdən əl çalmaq var, alqış var.

Bu oyunbaz dünyada oyun içində qalan,
Həyatını uduzmuş, qara bəxti yanmış var.

Qanmazlar arasında yaşamaq necə çətin,
Sevinərsən gününə, görsən bircə qanmış var.

Qulağının dibində top atılsa bilməyən,
Hələ qəflət içində neçə-neçə yatmış var.

Təbiəti lillənmiş, xasiyyəti bulanmış,
Varlığında palçığa, bataqlığa batmış var.

Vədindən üz döndərib, min sifətə düşənlər,
...Gör necə «arı yeyib, namusunu atmış» var.

Papağını havalıq gəzdirən çox olsa da,
İçində hər üzünə, kimliyini satmış var.

Ayrılığın ağrısı, canında dil-dil ötən,
Həsrətin dağlarına Xələfli tək çatmış var.

Qarabağın yarası sağalmır - illər ötür
Bu zalım zəmanədə Allahını danmış var.

Sözümüzü oxuyan, bilən olsa deyərik;
Unudulub gedəni yada salan anmış var.

Yol üzü Qarabağa,
Qəlbimdə qara bağa.
Gözlərimdən su verdim
Bəxtindən Qarabağa.

*Əli Rza XƏLƏFLİ*

*20.09.2020*

## Boyuna qurban olum, Azərbaycan əsgəri

***Əziz oxucu, əsrə bərabər günün başlanğıcında qəzetimizin bu sayı, yəni, 35(1015)-ci sayı hazır idi. Bu, həm də mənim dünyaya gəldiyim günün ünvanıdır: 1 oktyabr... Səhifədə dəyişiklik etmədim, çünki Azərbaycan ordusunun başladığı yeni savaş tarixi ilə elə mən özüm də təzədən dünyaya gəlirəm.***

*Bax: səhifə 6, 8.*

Kredo 2020.- 1 oktyabr.- S.1.